# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 7-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında, “Orqanik Naxçıvan” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2024-cü il 23 iyul tarixli 74s nömrəli Sərəncamında dəyişiklik edilməsi və bir sıra qərarlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 7-VII FR nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin strukturu haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2005-ci il 11 may tarixli 82 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

2. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin Kollegiyasının tərkibi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2005-ci il 17 may tarixli 83 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. “Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin mərkəzi aparatının strukturu və ştat sayının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2005-ci il 17 iyun tarixli 108 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın 22-ci hissəsi ləğv edilsin.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlinin 29-cu hissəsi ləğv edilsin.

6. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”nın 22- ci hissəsi ləğv edilsin.

7. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 iyul tarixli 53 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orqanik Naxçıvan” publik hüquqi şəxsin Nizamnaməsi”nin 4.4-cü bəndində “Dövlət Su Ehtiyatları Agentliyinin” sözləri “Ekologiya və Təbii Sərvətlər Nazirliyinin” sözləri ilə əvəz edilsin.

8. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 iyul tarixli 74s nömrəli Sərəncamının 1-ci hissəsi ilə təsdiq edilmiş “Orqanik Naxçıvan” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

“**Müşahidə Şurasının sədri**

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini

**Müşahidə Şurasının üzvləri:**

Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini.”.

9. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

9.1. “Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin 5 dekabr 2003-cü il tarixli 188 nömrəli təklifi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 dekabr tarixli 123 nömrəli Qərarı;

9.2. “Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin “Kəngərli rayon Suvarma Sistemləri İdarəsi”nin yaradılması barədə” 2004-cü il 23 iyun tarixli 48 nömrəli məktubuna baxılması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 iyun tarixli 66 nömrəli Qərarı;

9.3. “Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 iyul tarixli 46 nömrəli Qərarı.

10. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “3” aprel 2025-ci il

№ 20